Şahbazov İlkin Zaur oğlu,
hüquq tədqiqatçısı, Hüquq və İnsan Haqları İnstitutu
Ünvan: Bakı şəhəri, Hüseyn Cavid prospekti, 125
E-mail: ishahbazov@lhri.az

UOT 342.7
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0134

YOL HƏRƏKƏTİ QAYDALARI ƏLEYHİNƏ OLAN İNZİBATİ XƏTALARA GÖRƏ XÜSUSİ HÜQUQLARIN MƏHDUDLAŞDIRILMASI: HÜQUQİ BƏRABƏRLİK VƏ SOSİAL DÖVLƏT PRİNSİPİ KONTEKSTİNDƏ

Açar sözlər: *yol hərəkəti qaydaları, inzibati xəta, hüquqların məhdudlaşdırılması, fiziki şəxs, bərabərlik hüququ, dolanacaq mənbəyi, ov etmək, sürücülük hüququ.*

Ключевые слова: *правила дорожного движения, правонарушение, ограничение прав, физическое лицо, право на равенство, источник дохода, охота, водительское право.*

Keywords: *traffic regulations, legal violation, restriction of rights, natural person right to equality, source of subsistence, hunting, driving licence.*

Giriş

Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar müasir hüquq sistemlərində ictimai təhlükəsizliyə birbaşa təsir edən və yüksək risk potensialına malik hüquqazidd əməllər kimi xarakterizə olunur. Bu inzibati xətalara görə tətbiq edilən inzibati məsuliyyət tədbirləri həm preventiv, həm də tərbiyəvi funksiyaları yerinə yetirərək yol hərəkətinin təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

Azərbaycan Respublikasının hüquq sistemində yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalara görə tətbiq edilən inzibati tənbeh tədbirləri sırasında xüsusi hüququn məhdudlaşdırılması mühüm yer tutur. Lakin bu institutun tətbiqi zamanı bəzi normativ istisnalar, xüsusilə də əsas dolanacaq mənbəyi müəyyən fəaliyyət növü ilə bağlı olan şəxslərə münasibətdə müəyyən edilmiş fərqli hüquqi yanaşma hüquqi bərabərlik və proporsionallıq prinsipləri baxımından elmi müzakirə predmetinə çevrilmişdir.

Bu baxımdan, xüsusi hüquqların məhdudlaşdırılması institutunun həm milli qanunvericilik, həm də beynəlxalq və müqayisəli hüquq kontekstində təhlili onun hüquqi mahiyyətinin daha dərindən dərk edilməsi və mövcud normativ tənzimləmənin problemlərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Məqalənin məqsədi yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətlər kontekstində xüsusi hüquqların məhdudlaşdırılması institutunun hüquqi əsaslarını təhlil etmək və mövcud hüquqi tənzimləmənin təkmilləşdirilməsi ilə bağlı elmi cəhətdən əsaslandırılmış təkliflər irəli sürməkdir.

Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların hüquqi xarakteristikası

Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar yol hərəkəti təhlükəsizliyinə qarşı yönəlmiş, ictimai təhlükəsizlik üçün real və ya potensial risk yaradan hüquqazidd əməllərdir. Bu inzibati xətalar nəqliyyat vasitələrinin idarə edilməsi, piyadaların hərəkəti və avtomobil yollarından istifadə qaydalarının pozulması ilə bağlı hərəkət və ya hərəkətsizlikdə ifadə olunur və qanunvericiliklə nəzərdə tutulmuş inzibati məsuliyyət tədbirlərinin tətbiqinə səbəb olur.

Hüquq ədəbiyyatında yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar ictimai təhlükəsizlik üçün yüksək risk yaradan hüquqazidd davranışlar kimi səciyyələndirilir. Bu baxımdan, həmin inzibati xətlərə münasibətdə hüquqi tənzimləmənin əsas istiqaməti kimi preventiv yanaşmanın üstünlük təşkil etdiyi vurğulanır [2].

Hüquqi mahiyyət baxımından yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar hüquqaziddlik, təqsirlilik, qanunla müəyyən olunmuş inzibati məsuliyyət doğurması və inzibati tənbeh tədbirlərinin tətbiqinə səbəb olması ilə xarakterizə olunur. Bu əlamətlər inzibati xətanın hüquqi kvalifikasiyasının əsas meyarlarını təşkil etməklə yanaşı, tətbiq ediləcək inzibati tənbehin fərdiləşdirilməsi prosesində də mühüm rol oynayır. Eyni zamanda, həmin inzibati xətalar subyektin statusu, törədilmə forması və tətbiq edilən inzibati məsuliyyət tədbirlərinin növü nəzərə alınmaqla müxtəlif meyarlara əsasən təsnif edilir.

Azərbaycan Respublikası ərazisində yol hərəkətinin təşkili, onun təhlükəsizliyinin təmin edilməsi və yol hərəkəti qaydalarının müəyyən edilməsi dövlətin əsas vəzifələrindən biridir. Bu vəzifənin həyata keçirilməsi məqsədilə yol hərəkəti sahəsində hüquqi tənzimləmə Azərbaycan Respublikasının hüquq sisteminin müxtəlif sahələrinin normaları, habelə ümumi və xüsusi hüquq prinsipləri əsasında təmin edilir [1, s. 115].

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (AR İXM) yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaları sistemli şəkildə tənzimləyir. Bu xətalara, əsasən, müəyyən edilmiş sürət həddinin aşılması, yol nişanlarının və nişanlama xətlərinin tələblərinə əməl edilməməsi, svetoforun və ya nizamlayıcının göstərişlərinin pozulması, habelə nəqliyyat vasitəsinin idarəetmə hüququ olmayan və ya sərxoş vəziyyətdə olan şəxs tərəfindən idarə edilməsi kimi hüquqazidd əməllər aid edilir.

Həmin inzibati xətaların subyektləri həm fiziki, həm də hüquqi şəxslər ola bilər. Fiziki şəxslər barəsində inzibati tənbeh tədbiri kimi inzibati cərimə, inzibati xətanın törədilməsində istifadə edilmiş alət və ya predmetin müsadirəsi, xüsusi hüququn məhdudlaşdırılması və inzibati həbs tətbiq edilir. Hüquqi şəxslər barəsində isə əsasən inzibati cərimə və inzibati xətanın törədilməsində istifadə olunmuş əşyaların müsadirəsi nəzərdə tutulur.

AR İXM-in müddəalarına əsasən, inzibati tənbeh inzibati məsuliyyət tədbiri olmaqla, inzibati xəta törətmiş şəxsin qanunlara riayət ruhunda tərbiyələndirilməsinə, habelə həmin şəxs və digər şəxslər tərəfindən yeni hüquqpozmaların törədilməsinin qarşısının alınmasına xidmət edir. Bu yanaşma inzibati məsuliyyət institutunun preventiv və tərbiyəvi funksiyalarını özündə ehtiva edir [3].

Fiziki şəxslərə verilmiş xüsusi hüquqların məhdudlaşdırılmasının hüquqi əsasları

Fiziki şəxslərə verilmiş xüsusi hüquqların məhdudlaşdırılması institutu inzibati hüquqda hüquqpozmanın qarşısının alınması və pozulmuş hüquq qaydasının bərpası məqsədinə xidmət edən mühüm mexanizmlərdən biridir. Bu institutun mahiyyəti ondan ibarətdir ki, dövlət müəyyən hüququn həyata keçirilməsini inzibati qaydada müvəqqəti və ya müəyyən şərtlərlə məhdudlaşdırmaqla ictimai münasibətlərin qorunmasını təmin edir. Lakin qeyd olunan mexa-

nizmin tətbiqi zamanı normativ tənzimləmədə mövcud olan ayrı-ayrı istisnalar, xüsusilə də fiziki şəxsə verilmiş xüsusi hüququn məhdudlaşdırılması inzibati tənbeh növünün tətbiqi ilə bağlı məsələlər hüquqi-nəzəri baxımdan kompleks və mübahisəli problemlər doğurur.

Bu kontekstdə AR İXM-in 27-ci maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş "əsas dolanacaq mənbəyi ov olan fiziki şəxslərin ov hüququ məhdudlaşdırıla bilməz" müddəası xüsusi elmi müzakirə predmetinə çevrilir. Sözügedən normanın dispozitiv məzmunu inzibati məsuliyyətin ümumi prinsipləri, eləcə də Azərbaycan Respublikasının Konstitusiyası və dövlətin qoşulduğu beynəlxalq müqavilələrin müvafiq müddəaları ilə müqayisəli şəkildə təhlil edildikdə, müddəanın kifayət qədər mübahisəli olduğu üzə çıxır. Belə ki, inzibati məsuliyyət sistemində xüsusi hüququn məhdudlaşdırılması eyni hüquqpozmaya görə fərqli subyektlər arasında diferensial yanaşma tətbiq etmədən həyata keçirilməli olduğu halda, yalnız müəyyən fəaliyyət növü ilə (ovçuluqla) məşğul olan şəxslər üçün ümumi məhdudiyyət rejimində istisnanın müəyyən edilməsi bərabərlik prinsipinin tətbiqi baxımından suallar yaradır. Xüsusilə oxşar iqtisadi asılılığa malik digər peşə fəaliyyətləri üçün (məsələn, əsas dolanışıq mənbəyi sürücülük olan şəxslər) analoji istisnanın nəzərdə tutulmaması normativ tənzimləmədə selektiv yanaşma elementlərinin mövcudluğunu göstərir.

Məlum olduğu kimi, inzibati hüquqda məsuliyyət tədbirləri sistemli şəkildə qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsipləri üzərində qurulur. Qanunçuluq prinsipi inzibati tənbehin yalnız qanunla müəyyən edilmiş qaydada və hədlər daxilində tətbiq olunmasını tələb etməklə inzibati orqanların diskresion səlahiyyətlərini məhdudlaşdırır, eyni zamanda hüquqi müəyyənlik və proqnozlaşdırıla bilənliyi təmin edir. Bu prinsip hüquqi dövlətin əsas atributlarından biri kimi inzibati fəaliyyətin legitimliyini şərtləndirir.

Digər tərəfdən, inzibati məsuliyyətin fundamental prinsiplərindən biri olan qanun qarşısında bərabərlik prinsipi inzibati xəta törətmiş şəxslərin şəxsi və sosial statusundan asılı olmayaraq eyni hüquqi yanaşmaya məruz qalmasını nəzərdə tutur. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, oxşar faktiki hallarda olan şəxslərə hüquq normaları eyni qaydada tətbiq edilməli, hüquqi mübahisələr işin konkret faktiki halları əsasında həll olunmalı və hüquqi əhəmiyyət kəsb edən vəziyyətlərdə eyni hüquqi nəticələr təmin edilməlidir [4, s. 126]. Əks halda, hüquqi tənzimləmə çərçivəsində ayrı-seçkilik elementlərinin formalaşması qaçılmaz olur ki, bu da hüquqi dövlət prinsipinə zidd hesab edilir.

Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş bərabərlik hüququ da bu yanaşmanı təsdiqləyir. Konstitusiyaya əsasən, hər kəs qanun və məhkəmə qarşısında bərabərdir və dövlət heç bir əlamətə görə ayrı-seçkiliyə yol vermədən hüquq və azadlıqların bərabərliyinə təminat verir [5]. Bu müddəa hüquqi tənzimləmədə universal xarakter daşımaqla həm normayaratma, həm də normatətbiqetmə proseslərinə birbaşa təsir göstərir və qanunvericinin fərqli hüquqi rejimlər müəyyən edərkən əsaslandırılmış və proporsional yanaşma sərgiləməsini tələb edir.

Eyni mövqe Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenum qərarlarında da öz əksini tapmışdır. Məhkəmə öz hüquqi mövqeyində vurğulamışdır ki, eyni və ya oxşar vəziyyətdə olan şəxslərə eyni hüquqi yanaşmanın tətbiqi hüquqi bərabərlik prinsipinin ayrılmaz tərkib hissəsidir və belə şəxslər arasında əsassız fərqləndirmə bərabərlik hüququnun pozulmasına gətirib çıxarır [6].

Beynəlxalq hüquqi praktikada, xüsusilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnda qeyd olunur ki, oxşar vəziyyətdə olan şəxslərə fərqli rəftar yalnız obyektiv və ağlaba-

tan əsaslandırma mövcud olduqda hüquqa uyğun hesab edilə bilər, əks halda belə yanaşma ayrı-seçkilik kimi qiymətləndirilir. Bu kontekstdə *Thlimmenos v. Greece* işi üzrə formalaşdırılmış hüquqi mövqe mühüm əhəmiyyət kəsb edir və həmin işdə Məhkəmə vurğulamışdır ki, ayrı-seçkiliyin qadağan edilməsi yalnız oxşar vəziyyətdə olan şəxslərə fərqli rəftarla məhdudlaşmır, həm də əhəmiyyətli dərəcədə fərqli vəziyyətdə olan şəxslərə eyni yanaşmanın tətbiqi müəyyən hallarda ayrı-seçkilik yarada bilər (§ 44) [7].

Bu baxımdan, hüquqi qiymətləndirmə zamanı formal bərabərliklə yanaşı, substantiv bərabərlik prinsipinin də nəzərə alınması zəruridir. Substantiv bərabərlik hüququn bütün şəxslərə formal baxımdan eyni şəkildə tətbiqi ilə məhdudlaşmır; o, hüquqi əhəmiyyət kəsb edən faktiki və sosial fərqlərin nəzərə alınmasını, nəticə etibarilə isə ədalətli hüquqi nəticənin təmin edilməsini tələb edir.

Mövcud beynəlxalq və milli hüquqi yanaşmalar çərçivəsində "əsas dolanışıq mənbəyi ov olan şəxslərə" münasibətdə nəzərdə tutulan istisna sosial dövlət prinsipi ilə uzlaşaraq onların iqtisadi sabitliyinin və sosial rifahının qorunmasına xidmət edir və bu baxımdan diferensial hüquqi tənzimləməni əsaslandırır.

Bu müddəalar Azərbaycan Respublikası Konstitusiyasının preambulasında təsbit olunmuş sosial ədalətə əsaslanan iqtisadi və sosial qaydaların formalaşdırılması və əhalinin layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədləri ilə də uyğunluq təşkil edir.

Eyni kontekstdə professor Əmir Əliyev qeyd edir ki, sosial dövlətçilik modeli yalnız hüquqi bərabərliyin təmin edilməsi ilə kifayətlənmir, həm də sosial ədalətin bərqərar olunmasını, müxtəlif sosial qruplar arasında balansın qorunmasını və dövlətin sosial-iqtisadi hüquqların təminində aktiv rol oynamasını nəzərdə tutur. Bu baxımdan, hüquqi tənzimləmənin məqsədi yalnız sanksiya tətbiqi ilə məhdudlaşmır, eyni zamanda sosial sabitliyin qorunması və insanın minimal həyat standartlarının təmin olunmasını da əhatə edir [8, s. 24].

Beləliklə, aparılan təhlil göstərir ki, İXM-in 27.5-ci maddəsində nəzərdə tutulmuş istisnanın yalnız ov fəaliyyəti ilə məhdudlaşdırılması hüquqi müəyyənlik və bərabərlik prinsipləri baxımından qeyri-bərabər tənzimləmə yaradır və insan hüquqlarının, xüsusilə də qanun qarşısında bərabərlik hüququnun təminatı baxımından suallar doğurur. Bu səbəbdən həmin normanın təkmilləşdirilərək sürücülük hüququ ilə bağlı məhdudiyyət hallarını da əhatə etməsi məqsədəuyğun olardı.

Xüsusi hüquqların məhdudlaşdırılması sahəsində xarici ölkələrin təcrübəsi

Xüsusi hüquqların məhdudlaşdırılması institutu yalnız ovçuluq fəaliyyəti ilə bağlı normativ istisnalarla məhdudlaşmır və inzibati hüququn müxtəlif sahələrində – xüsusilə yol hərəkəti hüququ sahəsində də oxşar hüquqi mexanizmlər tətbiq olunur. Bu baxımdan, fərqli fəaliyyət sahələrində xüsusi hüquqlara müdaxilə zamanı istifadə olunan hüquqi yanaşmalar mahiyyət etibarilə eyni prinsiplərə – qanunçuluq, bərabərlik, proporsionallıq və sosial ədalət prinsiplərinə əsaslanır.

Məhz buna görə də, milli qanunvericilikdə ovçuluq hüququ ilə bağlı nəzərdə tutulmuş istisna qaydalarının qiymətləndirilməsi, xüsusi hüquqların məhdudlaşdırılmasının daha geniş normativ və institusional kontekstini araşdırmağı zəruri edir. Belə ki, bu institutun tətbiq dairəsi yalnız konkret peşə və ya fəaliyyət növü ilə məhdudlaşmayaraq, şəxslərin sosial və iqtisadi həyatına təsir edən müxtəlif hüquqi sahələri əhatə edir. Bu mənada, müqayisəli hüquqi təhlil göstərir ki, xüsusi hüquqların məhdudlaşdırılması mexanizmləri beynəlxalq praktikada daha çox yol hərəkəti hüququ sahəsində sistemləşdirilmiş və inkişaf etmiş formada tətbiq olunur.

Bu yanaşma çərçivəsində xarici ölkələrin təcrübəsi xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübəyə nəzər saldıqda, təhlil olunan

məsələ ilə bağlı diferensial və mərhələli məhdudlaşdırma modellərinin mövcudluğu aydın şəkildə müşahidə olunur. Xüsusilə ABŞ hüquq sistemlərində tətbiq olunan "Restricted Driver's License" (məhdudlaşdırılmış sürücülük icazəsi) və "Hardship License" (məhdud sürücülük hüququ) institutları inzibati məhdudiyyətlərin sürücülük hüququnun tam ləğvi ilə deyil, onun şərtləndirilmiş şəkildə davam etdirilməsi ilə nəticələnməsini təmin edən alternativ hüquqi mexanizmlər kimi çıxış edir.

Belə ki, ABŞ-ın əksər ştatlarında tətbiq olunan "Restricted Driver's License" mexanizmi sürücünün nəqliyyat vasitəsini idarə etməsini ciddi normativ çərçivəyə salır. Bu çərçivə idarəetmənin həyata keçirilə biləcəyi saatların, hərəkət marşrutlarının, habelə bəzi hallarda nəqliyyat vasitəsinin növünün əvvəlcədən müəyyən olunması formasında təzahür edir. Bu institut tam hüquq məhdudlaşdırılması əvəzinə yol hərəkəti təhlükəsizliyi ilə sosial mobillik arasında balansın təmin edilməsinə xidmət edən inzibati-hüquqi mexanizm kimi çıxış edir [9, s. 137–140].

Digər tərəfdən, ABŞ-ın Alabama ştatında tətbiq olunan "Hardship License" institutu daha çox humanitar-hüquqi yanaşmaya əsaslanır. Bu mexanizmə görə, sürücülük hüququnun tam məhdudlaşdırılması şəxsin və ya onun ailəsinin dolanışığı, təhsili və ya sağlamlığı baxımından ciddi çətinliklər yaradırsa, müəyyən istisnalar çərçivəsində məhdud sürücülük icazəsinin verilməsi mümkün hesab olunur. Bu yanaşma inzibati məsuliyyətlə sosial ədalət prinsipi arasında balansın təmin edilməsinə yönəlmişdir [10].

Eyni zamanda, Vaşinqton Ştatının qanunvericiliyində nəzərdə tutulan tənzimləmə də bu sahədə diferensiallaşdırılmış yanaşmanın mövcudluğunu təsdiq edir. "Revised Code of Washington" normalarına əsasən, məhdudlaşdırılmış sürücülük vəsiqəsi verilərkən onun istifadə şərtləri – hərəkət saatları, icazə verilən günlər və marşrutlar – inzibati orqan tərəfindən konkret və detallı şəkildə müəyyən edilir [11].

Bu yanaşma yalnız ABŞ hüquq sistemləri ilə məhdudlaşmır, eyni məzmunlu humanist istisna mexanizmləri digər hüquq sistemlərində də müşahidə olunur. Məsələn, Rusiya Federasiyasının qanunvericiliyində nəzərdə tutulmuşdur ki, borc və aliment öhdəliklərinin icrası çərçivəsində məhkəmə icraçısı borclunun əsas qanuni gəlir mənbəyi kimi istifadə etdiyi nəqliyyat vasitəsinə münasibətdə sürücülük hüququnun məhdudlaşdırılması tədbirini tətbiq edə bilməz [12]. Bu normativ tənzimləmə göstərir ki, hüquqi məsuliyyət tədbirlərinin tətbiqində şəxsin sosial və iqtisadi mövcudluğunun təmin edilməsi mühüm meyar kimi çıxış edir və inzibati məhdudiyyətlər mütləq şəkildə repressiv xarakter daşımamalıdır.

Beləliklə, xarici ölkələrin qanunvericilik təcrübəsi göstərir ki, xüsusi hüquqların məhdudlaşdırılması institutu müasir inzibati hüquqda yalnız repressiv xarakter daşımır, həm də preventiv və sosial yönümlü funksiyaları özündə birləşdirir. Bu yanaşmaya əsasən, inzibati sanksiyanın məqsədi hüquq pozuntusuna yol vermiş şəxsi ictimai həyatdan tam təcrid etmək deyil, əksinə, onun zəruri sosial və peşə fəaliyyətini qorumaqla yanaşı, tətbiq edilən təsirin çəkindirici və profilaktik effektivliyini təmin etməkdir.

Nəticə

Aparılan təhlil göstərir ki, yol hərəkəti qaydaları əleyhinə olan hüquqpozmalar üzrə inzibati məsuliyyət sistemi ümumilikdə hüquqi müəyyənlik, qanunçuluq və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədinə xidmət etsə də, xüsusi hüquqların məhdudlaşdırılması ilə bağlı mövcud normativ tənzimləmədə müəyyən ziddiyyətlər mövcuddur. Xüsusilə AR İXM-də nəzərdə tutulmuş ov fəaliyyəti ilə bağlı istisna halının digər peşə və dolanacaq mənbələrinə şamil edilməməsi hüquqi bərabərlik prinsipinin tətbiqi baxımından suallar doğurur.

Müqayisəli hüquqi təcrübə göstərir ki, bir sıra ölkələrdə sürücülük hüququnun tam məhdudlaşdırılması əvəzinə məhdudlaşdırılmış və ya şərti icazə modelləri tətbiq edilərək həm ictimai təhlükəsizlik, həm də sosial ədalət arasında balans təmin edilir. Bu yanaşma hüquqi məsuliyyətin yalnız repressiv xarakter daşımadığını, eyni zamanda sosial funksiyaya malik olduğunu nümayiş etdirir.

Bu kontekstdə hesab edilir ki, AR İXM-in 27.5-ci maddəsində fiziki şəxsə verilmiş xüsusi hüququn məhdudlaşdırılması ilə bağlı istisna halın yalnız ov fəaliyyəti ilə məhdudlaşdırılması kifayət qədər əsaslandırılmış deyil. Daha ədalətli və proporsional hüquqi tənzimləmənin təmin edilməsi məqsədilə bu istisnanın əsas dolanacaq mənbəyi sürücülük olan şəxsləri də əhatə etməsi məqsədəuyğun olardı. Bu dəyişiklik həm sosial dövlət prinsipinə, həm də konstitusion bərabərlik hüququna daha uyğun hüquqi model formalaşdıra bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. E.Əliyev. Yol hərəkətinin beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik. – Bakı: – 2003.

2. The Handbook of Road Safety Measures, 2009 by Emerald Group Publishing Limited, https://scispace.com/pdf/the-handbook-of-road-safety-measures-qqxucplyid.pdf

3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi // Azərbaycan Respublikasının 29 dekabr 2015-ci tarixli 96-VQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. [Elektron resurs] /URL: https://e-qanun.az/framework/46960

4. А.В. Новиков Конституционный Суд Российской Федерации Поступила в редакцию, “Принцип равенства перед законом в производстве по делам об административных правонарушениях”, 28 декабря 2017, ст. 126/http://www.vestnik.vsu.ru/pdf/pravo/2018/01/2018-01-14.pdf

5. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər): [Elektron resurs]/URL: http://www.e-qanun.az/framework/897

6. “Əmək pensiyaları haqqında”Azərbaycan Respublikası Qanununun 37.3.4-cü maddəsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 14 noyabr 2014-cü il tarixli Plenum Qərarı. https://constcourt.gov.az/az/decision/1158

7. Case of Thlimmenos v. Greece, 06 aprel 2000, App.no 34369/97. https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-58561%22]}

8. Ə.İ.Əliyev “İnsan hüquqları”. Dərslik. – Bakı, – 2013. https://academy-aba.az/api/books/1720675302403.pdf

9. Asbridge, M., Desapriya, E., Ogilvie, R., The impact of restricted driver’s licenses on crash risk for older drivers: A systematic review” Transportation Research Part A: Policy and Practice, Vol.97, 2017, pp. 137–140. https://carsp.ca/en/presentations-and-papers/2016-carsp-conference-acpser-halifax/the-impact-of-restricted-licenses-on-crash-risk-for-older-drivers-a-systematic-review/

10. Alabama Ştatının İnzibati Qaydası Rule 760-X-1-.24 - Hardship Driver License. https://admincode.legislature.state.al.us/administrative-code/760-X-1-.24#:~:text=(b)%20Hardship%20Driver%20License%20%2D,member%2C%20or%20dependent%20is%20enrolled.

11. Drivers’ licenses—identicards, Chapter 46.20 RCW https://app.leg.wa.gov/rcw/default.aspx?cite=46.20&full=true#46.20.391

12. Федеральный закон от 02.10.2007 N 229-ФЗ (ред. от 29.12.2025) «Об исполнительном производстве» Статья 67.1. Временные ограничения на пользование должником специальным правом. https://www.consultant.ru/document/cons_doc_LAW_71450/33fbdeab2423f9b8553d141c589dacd6c20c93f8/

Шахбазов Илькин Заур оглу,
научный сотрудник, Институт права и прав человека

НАКАЗАНИЕ ИЛИ СОЦИАЛЬНЫЙ БАЛАНС: ОГРАНИЧЕНИЕ СПЕЦИАЛЬНЫХ ПРАВ ПРИ ПРАВОНАРУШЕНИЯХ В СФЕРЕ ДОРОЖНОГО ДВИЖЕНИЯ

РЕЗЮМЕ

В статье анализируется правовая природа правонарушений в сфере дорожного движения, их административный, а в отдельных случаях уголовно-правовой характер, а также сущность применяемых в данной сфере мер ответственности.

Особое внимание уделяется институту ограничения специальных прав, предоставленных физическим лицам, при этом исследуются правовые основания и проблемы применения исключительного положения, пре-дусмотренного Кодексом об административных проступках Азербайджанской Республики.

В работе также оцениваются принципы равенства перед законом, пропорциональности и социальной справедливости в конституционно-правовом и международно-правовом контексте. Одновременно проводится сравнительный анализ зарубежного опыта, в частности практики США и Российской Федерации, с целью выявления альтернативных и более сбалансированных моделей ограничения специальных прав.

В заключение автором предлагается юридически обоснованная рекомендация, направленная на устранение существующих пробелов в нормативном регулировании и расширение перечня исключительных случаев.

Shahbazov Ilkin Zaur,
Legal researcher, Institute of Law and Human Rights

PUNISHMENT OR SOCIAL BALANCE: RESTRICTION OF SPECIAL RIGHTS IN TRAFFIC OFFENCES

SUMMARY

The article analyzes the legal nature of traffic offences, their administrative and, in certain cases, criminal-law character, as well as the essence of liability measures applied in this field.

Particular attention is paid to the institute of restriction of special rights granted to individuals, while examining the legal grounds and practical issues of the exception provided for in the Code of Administrative Offences of the Republic of Azerbaijan.

The study also evaluates the principles of equality before the law, proportionality, and social justice within constitutional and international legal frameworks. Furthermore, a comparative analysis of foreign practice, particularly that of the United States and the Russian Federation, is conducted to identify alternative and more balanced models of restricting special rights.

Finally, the author proposes a legally substantiated recommendation aimed at eliminating existing regulatory gaps and expanding the scope of applicable exceptions within the current legal framework.

Redaksiyaya daxilolma tarixi: 27.05.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 18.06.2026
Çapa qəbul olunma tarixi: 20.06.2026